**UOT: 338.28; JEL: O30; O32**

***Ümid Çingiz oğlu ƏLİZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı,***
***E-mail: umidalizada9@gmail.com***
***https://doi.org/10.30546/4.71.73001.2025.003.021***

# AZƏRBAYCANDA İNNOVASİYA FƏALİYYƏTİNİN VƏ SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ MÖVCUD VƏZİYYƏTİ

***Xülasə***

**Tədqiqatın məqsədi** Azərbaycanda innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovasiyalaşdırılmasının mövcud vəziyyətinin təhlil edilməsi və qiymətləndirilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** kimi, analiz, sintez, statistik və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Eyni zamanda, innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovasiyalaşdırılması üzrə elmi-tədqiqatların nəticələrinə istinadlar verilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** baxımından qeyd edək ki, məqalədə verilmiş nəticələrdən innovasiya fəaliyyətinin təkmilləşdirilməsi mexanizmlərinin hazırlanmasında istifadə etmək mümkündür.

**Tədqiqatın nəticələri** nöqteyi-nəzərindən bunu demək mümkündür ki, ümumi müddəalardan müasir dövrdə innovasiya fəaliyyətinin genişəndirilməsində tədbirlərin hazırlanmasında istifadə edilməsi fayda verə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** baxımından qeyd etmək olar ki, indiki şəraitdə ölkədə innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovasiyalaşdırılmasının mövcud vəziyyətinə obyektiv yanaşma təmin olunmuşdur. Bu reallıqlardan çıxış etməklə, Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsi istiqamətlərində fəaliyyət mexanizmləri hazırlanmış və onların həyata keçirilməsi üzrə təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: Azərbaycan, innovasiya, innovasiya fəaliyyəti, sənaye sektoru, sənaye sahələrinin innovasiyalaşdırılması, innovativ yanaşmalar.***

## *Giriş*

İnnovasiya bazarda yeni məhsul, istehsal fəaliyyətində yeni texnoloji proses və ya sosial xidmətlərin göstərilməsinə yeni yanaşma şəklində təcəssüm olunan innovativ fəaliyyətin yekun nəticəsidir. Yəni, innovasiya - innovativ fəaliyyətin son məhsuludur və bu fəaliyyətin nəticəsində yaranmış yeni bir şeydir. Bu məhsul isə bazarda təkmilləşir ki, bu da xidmətlərin göstərilməsində yeni texnoloji proses metodu kimi özünü göstərə bilər. Azərbaycanda innovasiya fəaliyyətinin subyektləri innovasiya fəaliyyəti prosesində, yəni elmi-tədqiqat işlərinin tamamlanmasında və onların istehsalata tətbiqində, habelə elmi nailiyyətlərin və texnologiyanın tətbiqində iştirak edən fiziki və hüquqi şəxslərdir. İnnovasiya fəaliyyətinin inkişafı üçün böyük elmi potensial lazımdır ki, bu da sənaye sahələrinin inkişafı yolu ilə reallaşdırılır [12, s. 379].

Müasir dünyada innovasiya cəmiyyətin tələblərini ödəmək üçün zəruridir, iqtisadi artıma önəmli dərəcədə təsir göstərir. Azərbaycanda innovasiya fəaliyyətinin reallaşdırıldığı əsas sahə sənaye müəssisələridir. Sənaye sektorunda innovasiyalar növbəti formada təsnif edilir: məhsul innovasiyaları – yeni və ya təkmilləşdirilmiş məhsulun tətbiqi; proses innovasiyaları – yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş istehsal üsullarının tətbiqi (yeni avadanlıq, yeni təşkilati proses). İnnovasiyalar radikallıq dərəcəsində görə də fərqləndirilir: əsas innovasiyalar – yeni ixtira və kəşflər, onların əsasında prinsipcə yeni avadanlıq yaradılır; təkmilləşdirilmiş innovasiyalar – avadanlıqların, mexanizmlərin, eləcə də komponent materialların modernləşdirilməsi; psevdo-innovasiya - prosesi sürətləndirən, keyfiyyəti yaxşılaşdıran və materiala qənaət edən dəyişikliklər daxildir. İnnovasiyaların səmərəli tətbiqi ölkədə iqtisadiyyatın şaxələndirilməsində önəmli rola malikdir. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsində əsas məqsəd innovativ məhsul və

xidmətlər istehsalı hesabına ÜDM-in artırılması, istehsalın səmərəliliyinin yüksəldilməsi, yüksək texnologiyalı məhsulların yerli və dünya bazarlarında rəqabət qabiliyyətinin artırılması məqsədilə innovativ texnologiyaların yaradılması, qabaqcıl texnologiyaların cəlb edilməsi, bilik tutumlu sənaye sahələrinin genişləndirilməsidir [5, s.139].

Müasir iqtisadiyyatda təkcə bazar mexanizmləri deyil, habelə dövlətin məqsədyönlü innovasiya siyasəti bütün səviyyələrdə və bütün sektorlarda innovasiya proseslərinin hərəkətverici qüvvəsidir. Bu sahədə dövlətin tənzimləyici rolu xüsusi keyfiyyət qazanır. Dar mənada innovasiya siyasəti biznes sektorunda innovasiya prosesinə birbaşa və ya dolayısı ilə təsir edən dövlət qərarlarının məcmusudur. İnnovasiya siyasətinin əsas tədbirləri: a) innovativ məhsulların, texnologiyaların və xidmətlərin inkişafı məqsədilə güzəştli kreditlər, qrantlar və subsidiyaların verilməsi yolu ilə müəssisələrə dövlətin maliyyə yardımı; b) innovasiya prosesinin iştirakçıları arasında əməkdaşlığın və qarşılıqlı əlaqənin gücləndirilməsi və innovasiya sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş proqramların və ya layihələrin maliyyələşdirilməsi; c) biliyə çıxışın asanlaşdırılmasına, milli innovasiya sisteminin spesifik aspektləri haqqında biliklərin yayılmasına və ya dərinləşdirilməsinə yönəlmiş tədbirlər (sahə və ya regional strategiyaların hazırlanması, uğurlu innovativ müəssisələrin təcrübəsinin yayılması və s.); ç) innovasiya fəaliyyətinin qanunvericilik təminatı (intellektual mülkiyyət hüquqları, innovativ müəssisələrin yaradılması və fəaliyyətinin qanunvericiliklə tənzimlənməsi).

İnnovasiya prosesinin iştirakçıları müxtəlif sənaye və fəaliyyət sahələrini təmsil etdikləri üçün onların fəaliyyətinə demək olar ki, bütün dövlət nazirlikləri və idarələri tərəfindən qəbul edilə bilən qərarlar təsir edir. Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, müstəsna hallarda innovasiya sistemini tənzimləmək üçün xüsusi nazirlik, komitə və ya agentlik yaradılır. Bu vəzifə tez-tez fərqli şəkildə həll olunur, yəni innovativ inkişaf üçün milli məqsəd və vəzifələri əks etdirən strategiya və ya ümumi fəaliyyət planı hazırlanır və sonra hər bir nazirliyin siyasətində bu milli məqsədlərə nail olmaq üçün müxtəlif mexanizmlər qurulur. Beləliklə, dövlətin innovasiya siyasətinin əsas vəzifəsi innovativ müəssisələrin təşviqi və ya onların fəaliyyətinə maneələrin azaldılması baxımından milli innovasiya sisteminə müsbət təsirləri artırmaqdır.

**Azərbaycanda innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovasiyalaşdırılmasının müasir vəziyyətinin təhlili**

Azərbaycanda innovasiya fəaliyyətinin təşkili və tənzimlənməsi məsələləri dövlətin innovasiya siyasəti vasitəsilə reallaşdırılmalıdır [1, s.88]. Hökumət milli sənayelərdə innovativ prosesləri inkişaf etdirmək, innovasiya siyasəti məsələləri üzrə qarşılıqlı təcrübə mübadiləsi və regionlarda və milli səviyyədə siyasətçilər arasında qarşılıqlı əlaqə yaratmaq üçün idarəetmənin aşağı səviyyələrinin fəal işini stimullaşdırmalıdır. Hökumətin müxtəlif qolları arasında əməkdaşlıq formal deyil, real və konkret idarəetmə qərarlarının qəbuluna yönəldilməlidir. Fəaliyyətlərin koordinasiyası çoxlu sayda tərəfdaşın cəlb olunduğu iri innovasiya layihələri üçün xüsusilə vacibdir. Bilik bazasının formalaşması dövlətin müdaxilə etdiyi sahələrə təsir edir: təhsil, əqli mülkiyyətin qorunması, innovasiya siyasəti, ticarət və investisiya siyasəti, əlverişli investisiya mühitinin yaradılması. İnsanlar üçün bərabər imkanların yaradılması, innovativ inkişaf üçün motivasiyanın yaradılması və ilk öncə, əmək məhsuldarlığının artırılması əsasında iqtisadi fəaliyyətin səmərəliliyinin artırılması prinsipial önəm daşıyır. Yüksək texnologiyalı innovativ məhsulların daxili bazarının yaradılması geniş miqyasda yüksək texnologiyalı və rəqabətqabiliyyətli şirkətlər yaratmağa imkan verəcəkdir.

Sənaye müəssisələri rəqabətə davamlı olmaq üçün innovativ fəaliyyətlərini yüksək səviyyədə saxlamalıdırlar. Bunun üçün innovasiya siyasətini effektiv şəkildə reallaşdırmaq lazımdır və belə bir siyasətin reallaşdırılmasının əsas üsulları innovasiya sahəsində müsbət dəyişikliklər üçün institusional və qanunvericilik bazasının formalaşdırılmasıdır. Bu üsullar innovasiya strategiyasının reallaşdırılması üçün əsas rolunu oynayır [6, s.401-404]. İnnovasiya strategiyası innovasiya fəaliyyətinin əsasını təşkil edir. İnnovasiyaların tətbiqi ilə bağlı problemlərin əksəriyyəti müəssisələrin fəaliyyətində innovasiya strategiyasının olmaması ilə bağlıdır. İnnovasiya strategiyası məhsulda, istehsal prosesində, marketinqdə və təşkilatda dəyişikliklərə diqqət yetirdiyinə görə

müəssisənin strukturunda əsas yer tutmalıdır. İnnovasiya strategiyası, adətən tədqiqat və inkişafa sərmayə qoymaqla texnologiya və ya xidmətlərdə irəliləyişləri təşviq etmək üçün müəssisə tərəfindən istifadə olunan plandır. Rəqabət üstünlüyü əldə etmək istəyən müəssisələr üçün innovasiya strategiyası vacibdir. Effektiv innovasiya strategiyası inkişaf etdirilən məhsul və ya xidmətə unikal bir şey əlavə etməli və ilham verməlidir. İnnovasiya strategiyasının hazırlanması müəssisənin ümumi strategiyasına əsaslanır və müəssisə rəhbərliyinin qarşıya qoyduğu məqsəddən asılıdır [14].

Müəssisənin innovasiya strategiyasına müxtəlif amillər təsir edir ki, onlar həmin strategiyanın tətbiqini məhdudlaşdıra və ya asanlaşdıra bilər. İnnovasiyaların tətbiqini asanlaşdıran amillərə müəssisənin istehsal-texniki potensialı və maliyyə imkanları, vergi güzəştləri, subsidiyalar və qrantlar şəklində dövlət dəstəyi daxildir. İnkişaf üçün məhdudlaşdırıcı amillərə investisiyaların, ehtiyat potensialının olmaması, kadrların dəyişikliklərə daxili müqaviməti və strategiyanın reallaşdırılmasının yüksək qiyməti daxildir. Beləliklə, innovasiya strategiyasının formalaşmasına təsir edən amillərin nəzərə alınması bir tərəfdən müəssisənin mövcud fəaliyyətinə gözlənilən təhlükələri, digər tərəfdən isə yeni imkanları müəyyənləşdirməyə şərait yaradır [8, s.68]. İnnovasiya strategiyasının seçilməsi və reallaşdırılması innovasiya potensialının vəziyyətindən asılıdır, onun formalaşması müəssisənin daxili mühitinin komponentləri və elementləri vasitəsilə reallaşdırıla bilər. Müəssisənin malik olduğu resursların məcmusu onun innovativ potensialını formalaşdırır və sistemli innovativ inkişafa hazırlığını xarakterizə edir və buna görə innovasiya strategiyasının strukturuna və istiqamətinə təsir göstərir. Müəssisənin innovativ potensialının hərtərəfli strukturunun formalaşdırılması bu istiqamətdə gələcək inkişafın perspektivləri hesab oluna bilər.

Azərbaycanda sənaye müəssisələrinin innovasiya strategiyasının reallaşdırılmasını təmin etmək məqsədilə, ilk öncə, müəssisələrin texnologiya transferi bazarına daxil olmasına, iri investisiya və innovasiya layihələrində iştirakına şərait yaratmaq lazımdır [4]. Yeni innovativ məhsulların hazırlanması və inkişafı üçün daha məhsuldar mexanizmlərin fəal şəkildə tətbiqi və müəssisənin innovativ inkişafına dəstək vermək üçün vergi güzəştləri tətbiq etmək lazımdır [10, s.89]. Vergi güzəştli ölkə iqtisadiyyatına birbaşa investisiya axınını stimullaşdırır, yeni iş yerlərinin açılmasına kömək edir, bazarı yüksək keyfiyyətli yerli məhsullarla doyurur və büdcəyə vergi daxilolmalarını artırır. Vergi güzəştləri yüksək texnologiyalara yiyələnən və inkişaf etdirən, uzunmüddətli iqtisadi artımı təmin etməyə və milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmağa hazır və qadir olan innovativ sənaye müəssisələri üçün xüsusilə cəlbedicidir.

Azərbaycanda sənaye müəssisələrinin innovasiyalaşdırılması proseslərinin təhlili üçün, ilk öncə, onların mövcud vəziyyətini təhlil etmək lazımdır. Şəkil 1-də Azərbaycanda istehsal olunmuş sənaye məhsulunun dəyəri verilmişdir.




**Şəkil 1. Azərbaycanda sənaye məhsulunun dəyəri**
*(https://www.stat.gov.az/source/industry/. ARDSK).*

Şəkil 1-dən Azərbaycanda sənaye sektorunda istehsal olunan məhsulun dəyərinin davamlı artdığını müşahidə edirik. Lakin COVİD-19 pandemiyasının daha geniş yayıldığı 2020-ci ildə sənaye məhsulunun dəyəri kəskin azalmış və 2021-ci ildən etibarən yenidən artmışdır. Belə ki, 2020-ci ildə sənaye məhsulunun dəyəri 2019-cu ilə görə 9729,3 milyon AZN 26,1% azaldığı halda, 2021-ci ildə 2020-ci ilə görə 17959,2 milyon AZN və ya 48,2%, 2022-ci ildə isə 49113,5 milyon AZN və ya 2,3 dəfə artmışdır. 2022-ci ildə istehsal olunmuş sənaye məhsulunun 10670,7 milyon AZN-i və ya 12,4 %-i dövlət, 75712,7 milyon AZN-i və ya 87,6%-i isə qeyri-dövlət sektorunun payına düşür. Sənayedə innovasiya məhsulunun həcmini isə şəkil 2-də vermişik.




**Şəkil 2. Azərbaycan sənayesinin innovasiya məhsulunun həcmi (Mənbə: ARDSK).**

Şəkil 2-dən göründüyü kimi, 2020-ci il istisna olmaqla tədqiq etdiyimiz digər illərdə yeni tətbiq olunmuş məhsulun həcmi təkmilləşdirilmiş məhsuldan çox olmuşdur. Ən çox innovasiya məhsulu 111489,5 min AZN olmaqla 2022-ci ildə olmuşdur ki, bunun da 65,3%-i yeni tətbiq olunmuş, 34,7%-i isə təkmilləşdirilmiş məhsulun payına düşür. Azərbaycanda sənaye sektorunda innovasiya məhsulunun həcminin çox az olduğunu görürük. Odur ki, Azərbaycanda innovasiya fəaliyyətinin aktivliyinin və sənaye sahələrinin innovasiyalaşdırılması səviyyəsinin yüksəldilməsi əsas prioritetlərdən olmalıdır.

Azərbaycanın innovasiya fəaliyyətinin inkişafı məqsədilə ETT-nin nailiyyətlərinin, informasiya texnologiyalarının səmərəli istifadəsinin, innovasiya infrastrukturunun fəaliyyətinin effektivliyinin artırılması, innovativ texnologiyalar şəbəkəsinin tətbiqinin genişləndirilməsi, milli innovasiya konsepsiyasının hazırlanması və reallaşdırılması, sahibkarlıq subyektlərinin innovativ aktivliyinin artırılması, elmi potensialın reallaşdırılmasına imkan verən texnoparklar şəbəkəsinin səmərəli əsaslarla təşkili əsas vəzifələr kimi qarşıya qoyulmalıdır [3, s.308-309]. Müxtəlif növ innovasiyaların inteqrasiyası və onların regional səviyyədə istifadəsini sürətləndirmək üçün regional və bələdiyyə səviyyələrində investorları, sənaye nümayəndəliklərini, dövlət orqanlarını birləşdirən, özünütənzimləyən təşkilatlar şəklində fəaliyyət göstərən mərkəzlərin yaradılması da məqsədəuyğundur. İstehsal sektoru ilə elm və təhsil strukturları arasında əlaqəni təmin etmək, innovativ layihələrin maliyyə problemlərini həll etmək və vəsaitlərin xərclənməsinə nəzarəti təmin etmək, innovativ fəaliyyətin stimullaşdırılması metodlarını hazırlamaq belə mərkəzlərin əsas funksiyalarına daxil edilə bilər [2, s.11].

**Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının intensivləşdirilməsi istiqamətləri**

Sənayenin innovativ fəaliyyətinin inkişafı onun stimullaşdırılması səviyyəsindən xeyli dərəcədə asılıdır. Odur ki, sənayenin innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmini təkmilləş-

dirmək lazımdır. Sənayedə innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmi innovasiya fəaliyyətinin prioritet sahələrində büdcə subsidiyalarının əldə edilməsi imkanlarının qiymətləndirilməsinin nəticələrini nəzərə almalıdır. Həmin prioritet sahələr kimi sənaye məhsullarının yeni nümunələrinin yaradılması, mühəndislik xidmətlərinin göstərilməsi, elmi-tədqiqat işlərinin aparılması və digərləri göstərilə bilər [7, s.23].

İnnovasiya fəaliyyətinin stimullaşdırılması dedikdə, məhsulların rəqabət qabiliyyətini artırmaq məqsədilə sahibkarlıq subyektlərinin innovasiyaların tətbiqinə həvəsləndirilməsi forma və üsullarının məcmusu başa düşülür. İqtisadi ədəbiyyatda innovasiyanın stimullaşdırılmasının müəyyənləşdirilməsinə iki yanaşma mövcuddur. Onların arasında əhəmiyyətli fərq ondan ibarətdir ki, bəzi ekspertlər innovasiyanın stimullaşdırılmasını inkişafdan istehsalda innovasiyaların tətbiqinə qədər stimullardan istifadə prosesi kimi, digərləri isə innovasiyaya şərait yaradan sosial-iqtisadi, hüquqi, ideoloji və digər şərtlərin məcmusu kimi qəbul edirlər [11, s.157]. Sənayenin innovasiya fəaliyyətinin stimullaşdırılması təkcə müəssisələrin daxili elementləri (motivlər, stimullar, rəhbərlik üslubu) ilə deyil, habelə innovasiya fəaliyyətinin dövlət səviyyəsində tənzimlənməsi problemlərinin həlli ilə əlaqələndirilir.

Sənaye müəssisələrinin innovativ fəaliyyətinin nəticələri əsasən stimullaşdırmanın düzgün seçilmiş formasından asılıdır. İnnovasiya fəaliyyətinin stimullaşdırılması üç əsas formada reallaşdırılır: 1) innovasiya fəaliyyətinə dövlət dəstəyi; 2) büdcədənkənar maliyyələşdirmə; 3) innovasiya fəaliyyətində iştirakçıların motivasiyası. İnnovasiya sahəsində dövlət tədbirlərini iki əsas qrupa bölmək olar: birbaşa və dolayı. Birbaşa üsullara aiddir: subsidiyalaşdırılmış maliyyələşdirmə; icra hakimiyyətinin tərkibində xüsusi təşkilatların yaradılması; universitetlər, sənaye və dövlət elmi tədqiqat müəssisələri arasında elmi və texniki kadr mübadiləsinin asanlaşdırılması; ETİ-nin inkişafına böyük töhfə verən şəxsləri və korporasiyaları həvəsləndirmək. Dolayı tənzimləmə innovasiya üçün əlverişli şəraitin yaradılması formasında reallaşdırlır. Dolayı üsullara aşağıdakılar daxildir: qanunvericilik normalarının hazırlanması və reallaşdırılması; sosial infrastrukturun yaradılması və s.

Büdcə resurslarının məhdud olması şəraitində müəssisənin innovativ fəaliyyətinin maliyyələşdirilməsinin əsas mənbəyi büdcədənkənar vəsaitlərdir. İnnovasiyaların stimullaşdırılmasının bu istiqamətinin əsas formaları aşağıdakılardır: müəssisələrin öz vəsaitləri; büdcədənkənar fondların vəsaitləri; maliyyə bazarında əldə edilən vəsaitlər; yenidən bölüşdürülməsi yolu ilə alınan vəsaitlər. Əksər müəssisələr üçün innovasiya fəaliyyətlərinə investisiyanın ən böyük payı öz maliyyə mənbələri tutur. Öz vəsaitlərinin elementləri sırasına aşağıdakıları daxil etmək məqsədəuyğundur: məhsulların satışından, yerinə yetirilən tədqiqat işlərindən, maliyyə əməliyyatlarından əldə edilən mənfəət; amortizasiya ayırmaları; sərəncamda olan əmlakın satışından əldə edilən gəlirlər və s. Müəssisənin innovativ fəaliyyətinin maliyyə təminatında əsas yer kommersiya kreditinə verilir.

İnnovativ fəallığın artırılması probleminin həlli yollarından biri biznes inkubatorlarının yaradılmasıdır, onların köməyi ilə innovativ biznesin inkişafı proqramları hazırlanır və reallaşdırılır. Dövlət dəstəyi və səmərəli idarəetmə ilə müəssisələr innovasiyalarda yüksək nəticələr əldə edə bilirlər. Bunun üçün aşağıdakıları əhatə edən tədbirlər görmək lazımdır: stimullaşdırma üsullarının, vasitələrinin və formalarının seçilməsi, stimullaşdırmanın effektivliyinin monitorinqi və qiymətləndirilməsi, habelə yeniliyin stimullaşdırılması üsul və formalarının təkmilləşdirilməsi. Bu şərtlərin yerinə yetirilməsi müəssisənin innovativ fəaliyyətinə müsbət təsir göstərəcəkdir. Sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılmasının yaxşılaşdırılmasına yönəlmiş əsas fəaliyyətlərə aşağıdakılar daxildir: 1) innovativ məhsullar üçün sifarişlər sisteminin yaradılması; 2) innovasiya fəaliyyətinin inkişafında problemlərin təhlilinə və innovasiyaların axtarışı, tətbiqi və stimullaşdırılmasına, habelə innovasiya infrastrukturunun inkişafına dair təkliflərin hazırlanmasına cavabdeh olan təşkilati strukturun yaradılması; 3) biznes, elm və təhsil subyektləri arasında informasiya uçurumunun aradan qaldırılması üçün sənaye müəssisələrinin innovasiyalarının vahid reyestrinin yaradılması. Dövlət və özəl biznes arasında əməkdaşlığın yaradılması innovasiya fəallığının artırılması və ölkə iqtisadiyyatının inkişafında aktual problemlərin həlli üçün ən mühüm

istiqamətə çevrilir. Dövlət-özəl əməkdaşlıq mexanizminin əsasını dövlət elmi təşkilatlarının, elmi təhsil müəssisələrinin, özəl sənaye, maliyyə və elmi-innovasiya biznesinin birgə fəaliyyəti təşkil edir. Dövlət və özəl biznesin qarşılıqlı fəaliyyəti üçün səmərəli iqtisadi siyasətin formalaşdırılması, investisiya və innovasiya fəallığının artırılması, ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsi, habelə istehsal və sosial sahənin inkişafı ən mühüm şərtlərdən biridir [9, s.50].

İqtisadi inkişafın uzunmüddətli konsepsiyalarına əsaslanan digər mexanizm istehsal klasterlərinin formalaşdırılmasıdır. Klaster birləşmələri çərçivəsində iqtisadiyyatın müxtəlif sektorlarından olan müəssisələri məhsul istehsalı məqsədilə ümumi istehsal zənciri çərçivəsində birləşdirmək mümkün olur. Klaster mexanizmi Azərbaycan iqtisadiyyatının innovativ potensialının artırılması vasitəsi kimi çıxış edir. Sənaye müəssisələrində innovasiyaların tətbiqi üçün kifayət qədər ixtisaslı kadrlara malik olmaq lazımdır. Məhz müəssisənin universal və ixtisaslı kadrları innovativ texnologiyaların daimi tətbiqi üçün zəruri şərtdir [13, s. 423]. Bu, məhsulun formalaşdırılmasında və onun istehsal həcmində qismən dəyişikliklərlə əlaqəli olan yeniliklərdə özünü daha aydın şəkildə göstərir. Bununla əlaqədar müəssisələrdə kadrlardan daha çevik istifadə üçün işçi qrupunun unikal strukturunun formalaşdırılması ilə bağlı müəyyən kadr siyasəti reallaşdırılmalıdır.

Qeyd edək ki, sənaye müəssisələrinin innovativ fəaliyyətində böyük uğur əldə etməyin əsas şərti daxili və xarici mühit amillərindəki dəyişiklikləri qabaqcadan görməyə və onlara mümkün qədər səmərəli reaksiya verməyə imkan verən müvafiq strategiyanın düzgün seçilməsidir. Sənaye müəssisələrinin innovativ inkişafı innovativ fəaliyyətin planlaşdırılması, müvafiq innovasiya sahəsində qərarların qəbulu və reallaşdırılması prosesində onun sistemli nəzarəti və təşkili, əldə edilmiş nəticələrin qiymətləndirilməsi, habelə prioritetlərin seçilməsinin düzgün və məqsədəuyğunluğu ilə mümkündür. Fəaliyyəti innovasiya sahəsində reallaşdırılan sənaye müəssisələri üçün innovasiya strategiyasının hazırlanması əsas zərurətdir. Düzgün formalaşdırılmış innovasiya strategiyası şirkətdə innovativ mədəniyyətin formalaşmasına, eləcə də şirkətin brendinin təbliğinə və məhsullarının populyarlığının artırılmasına mühüm təsir göstərə bilər. Bu məsələlərin müvəffəqiyyətlə həlli innovasiya strategiyalarının düzgün idarə edilməsindən asılıdır.

### *Nəticə*

Sənaye müəssisələrinin və bütövlükdə ölkənin daha yüksək, keyfiyyətcə fərqli inkişaf səviyyəsinə keçidinə nail olmaq məqsədilə innovasiya strategiyalarının idarəetmə sistemini təkmilləşdirmək və bu strategiyaların səmərəliliyini artırmaq zəruri görünür. Bu məqsədlər müəssisədə innovasiyaların idarə edilməsinin bütün səviyyələrini əhatə edən “sənaye müəssisələrinin innovativ fəaliyyətinin səmərəli idarə edilməsi konsepsiyası”nın hazırlanmasını zəruri edir. Təklif olunan sənaye müəssisələrinin innovasiya fəaliyyətinin səmərəli idarə edilməsi konsepsiyası innovasiyaların idarə edilməsi sahəsində xarici təcrübə və yerli müəssisələrin innovasiyaların idarə edilməsinin mövcud vəziyyəti, habelə ölkəmizin innovativ inkişaf yoluna keçidinin xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmalıdır. Onun əsas müddəaları olmalıdır:

1. İnnovativ fəaliyyət sənaye müəssisələrinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasını, uzunmüddətli rəqabət üstünlükləri formalaşdıran texnoloji sıçrayışın reallaşdırılmasını təmin etməlidir.

2. Sənaye müəssisələrində innovativ fəaliyyətin reallaşdırılması maraqlı tərəflərin tələblərinə, xarici və daxili mühitdə dəyişikliklərin vəziyyətinə və proqnozlarına, o cümlədən müəssisələrin inkişafının texnoloji səviyyəsinə uyğun olaraq onların strateji məqsədlərinə nail olmağa yönəldilməlidir.

3. İnnovasiya fəaliyyətinin xüsusiyyətləri, ilk öncə, uzunmüddətli yönümlü olması və özünəməxsus yüksək qeyri-müəyyənliyi və riski ilə əlaqədar olaraq, onun səmərəli tətbiqi məqsədilə müəssisədə innovasiya siyasətinin və strategiyasının hazırlanmasını və səmərəli şəkildə reallaşdırılmasını təmin edən xüsusi idarəetmə sistemlərinin formalaşdırılmasını tələb edir.

4. İnnovativ fəaliyyət, bir tərəfdən, müəssisənin idarə edilməsinin funksional alt sistemlərindən

biri, digər tərəfdən isə ekvivalent fəaliyyət sahəsidir ki, əsasən proqnozlaşdırıla bilən və əldə edilə bilən nəticələrlə xarakterizə olunur. Bu məqsədlə innovasiya fəaliyyətinin idarə edilməsi sistemli şəkildə reallaşdırılmalıdır.

Sənaye müəssisələrində innovasiya strrategiyalarının idarə edilməsinin mövcud effektivlik səviyyəsinə uyğun olaraq, onun təkmilləşdirilməsi istiqamətində addımlar atılmalıdır. İnnovasiya strategiyalarının idarə edilməsinin effektivliyi aşağı səviyyədədirsə, müəssisənin təşkilati strukturuna, innovasiyaların idarə edilməsi proseslərinə və innovativ potensialın formalaşmasına dair tələbləri nəzərdən keçirmək lazımdır. Müəssisədə innovasiya strategiyalarının idarə edilməsinin səmərəlilik səviyyəsi qənaətbəxş kimi səciyyələndirilirsə, innovasiya potensialını inkişaf etdirmək, onun güclü tərəflərini daha da gücləndirmək və zəif tərəfləri aradan qaldırmaq lazımdır. Əgər müəssisə artıq innovasiya strategiyalarının idarə edilməsində yüksək səmərəliliyə nail olubsa, onun rəhbərliyi mövcud səmərəliliyin səviyyəsini saxlamaq üçün idarəetmənin bütün səviyyələrində hədəf göstəricilərə daim nəzarət etməli, həmçinin innovasiyaların daha da inkişaf etdirilməsi və müəssisənin fəaliyyətinin yaxşılaşdırılması üçün resursları yönəltməlidir. Yekun olaraq bildirək ki, sənaye müəssisələrində innovasiya strategiyasının səmərəli idarə edilməsi konsepsiyasının təklif olunan əsas müddəalarının praktiki şəkildə tətbiqi uzunmüddətli rəqabət üstünlüklərinin əldə edilməsinə və nəticədə onların innovativ inkişafına təkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. Ağayev, Y.A. İnnovasiya fəaliyyətinin konseptual əsasları və inkişaf xüsusiyyətləri. Kooperasiya elmi-praktiki jurnal, – 2020. №4(59), – s.83-89.
2. Babayev, F. Azərbaycanın qida sənayesinin innovasiyalı inkişafı: imkanlar və məhdudiyyətlər. İpək yolu, – 2020. №2, – s.5-12.
3. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt. SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.
4. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.
5. Hüseynova, A.D. Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf yolu. Azərbaycanın Vergi jurnalı, 4(124)/2015, – s.129-144
6. Osmanov, İ.O. İnnovativ iqtisadiyyatın inkişafının əsas xüsusiyyətləri. Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar” mövzusunda Respublika elmi konfransının materialları. Mingəçevir Dövlət Universiteti. – 11-12 dekabr 2020, – s.401-404
7. Rəsulov, K.A. Sənayedə innovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. /– Bakı, 2015. – 30 s.
8. Бездудная, А.Г. Разработка инновационной стратегии развития предприятия / А.Г. Бездудная, Е. Ханьлинь // Форум молодых ученых. – 2020. № 1(41), – с. 66-70.
9. Орозалиева, А.С. Сущность инновационной деятельности и ее значение в государстве / А.С. Орозалиева, С.Ш. Омуралиева // Ежеквартальный научно-информационный журнал "Экономический вестник". – 2019. № 2, – с. 47-50.
10. Рахмани, Ф.П. Механизмы применения инновационной стратегии в развитии промышленных предприятий Азербайджана. Audit – 2020. 4 (30), – s. 81-94.
11. Солянов, А.П. инновационное развитие пищевой и перерабатывающей промышленности / А.П. Солянов // АПК России: образование, наука, производство: сборник статей II Всероссийской (национальной) научно-практической конференции, – Саратов, – 28–29 сентября 2021, – с. 155-158.
12. Alguliyev, R.M., Aliyev A.G., Aliyev Sh.T., Shahverdiyeva R.O. Development of information support systems for management of innovative structures / The 8th IEEE International Conference on Application of Information and Communication Technologies

(AICT2014), Astana, 2014. – 378-382.
13. Aliyev, Sh. Priorities for strengthening Azerbaijan's economic security and sovereignty in the context of sustainable development //Sci. Educ. Innov. Context Mod. Probl. Issue 2, Vol. 8, 2025, IMCRA, pp. 420-446 . DOI: 10.56334/sei/8.2.29 - https://imcra-az.org/uploads/public_files/2025-04/aliyev-shafa.pdf.
14. Piana V., Aliyev, Sh.T. and etc. 2009 – Innovative Economic Policies for Climate Change Mitigation. Economics Web Institute, Rome.

***Умид Чингиз оглу Ализаде***
***докторант Азербайджанского Университета Кооперации,***
***E-mail: umidalizada9@gmail.com***

**Современное состояние инновационной деятельности и инновационной деятельности промышленных секторов в Азербайджане**

***Резюме***

**Цель исследования** – является анализ и оценка текущего состояния инновационной деятельности и промышленных инноваций в Азербайджане.

**Методология исследования** – использованы методы анализа, синтеза, статистического и сравнительного анализа. При этом сделаны ссылки на результаты научных исследований по инновационной деятельности и инновационной деятельности отраслей промышленности.

**С точки зрения прикладной значимости исследования** следует отметить, что представленные в статье результаты могут быть использованы при разработке механизмов совершенствования инновационной деятельности.

**С точки зрения результатов исследования** можно сказать, что использование общих положений при разработке мер по расширению инновационной деятельности в современную эпоху может быть полезным.

**С точки зрения оригинальности и научной новизны исследования** можно отметить, что представлен объективный подход к современному состоянию инновационной деятельности и инновационности промышленных отраслей в стране. На основе этих реалий разработаны механизмы действий по ускорению процессов инновационности промышленных отраслей в Азербайджане и выдвинуты предложения по их внедрению.

***Ключевые слова: Азербайджан, инновации, инновационная деятельность, промышленный сектор, инновации промышленных секторов, инновационные подходы.***

***Umid Chingiz Alizade***
***Doctoral student of Azerbaijan Cooperation University,***
***E-mail: umidalizada9@gmail.com***

**Current status of ınnovatıon actıvıty and innovatıon of ındustrıal sectors ın Azerbaıjan**

***Summary***

**The purpose of the research** is to analyze and assess the current state of innovation activity and industrial innovation in Azerbaijan.

**The research methodology** used methods of analysis, synthesis, statistical and comparative analysis. At the same time, references are made to the results of scientific research on innovation activity and innovation of industrial sectors.

**In terms of the applied significance of the research,** it should be noted that the results presented in the article can be used in the development of mechanisms for improving innovation activity.

**From the point of view of the results of the study**, it can be said that the use of general provisions in the development of measures to expand innovation activity in the modern era can be beneficial.

**In terms of the originality and scientific novelty of the research**, it can be noted that an objective approach to the current state of innovation activity and innovation of industrial sectors in the country has been provided. Based on these realities, action mechanisms have been developed to accelerate the processes of innovation of industrial sectors in Azerbaijan and proposals have been put forward for their implementation.

***Key words: Azerbaijan, innovation, innovation activity, industrial sector, innovation of industrial sectors, innovative approaches.***